*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.149-156*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.149-156*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.149-156*

**UOT: 904:930.85:39**
https://doi.org/10.30546/670832.2025.01.1240

# Orta əsr müsəlman epiqrafikası abidələrində qadınların daşıdığı titullar haqqında (Naxçıvan materialları əsasında)

**Müəllif(lər):**

**Hacıfəxrəddin Səfərli**
Naxçıvan Dövlət Universiteti
AMEA-nın müxbir üzvü, professor
**E-poçt:** seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

**Açar sözlər:** Naxçıvan, epiqrafik abidə, kitabə, xatın, banu, bikə, xanım

**Annotasiya.** Məqalədə orta əsrlər dövründə Naxçıvan bölgəsində yaradılmış müsəlman epiqrafikası abidələri əsasında qadınlara verilən titul və müraciət formalarının tarixi, semantik və sosial-mədəni aspektləri araşdırılmışdır. Tədqiqat göstərir ki, bu dövrün ictimai münasibətləri çərçivəsində qadınlara "xatın", "xanım", "bikə", "banu", "şahbanu" kimi titullarla müraciət edilməsi onların yaşına, ailə vəziyyətinə, ictimai statusuna və dini mənsubiyyətinə uyğun olaraq müəyyən olunmuşdur. Məqalədə Möminə xatın, Qudi xatın, Həvva Bədr bikə xatın, Ziba xanım, Banu şahbikə, Qureyş şahbanu, Mikeysə xanım və digər tarixi şəxsiyyətlərin timsalında bu titul və epitetlərin konkret istifadəsi epiqrafik mətnlər əsasında təhlil olunmuşdur.

Tədqiqatın nəticələri göstərir ki, qadınlara verilən bu titullar sadəcə rəsmi-məişət müraciətləri deyil, həm də onların cəmiyyətdəki nüfuzunu, dini və mənəvi keyfiyyətlərini, sosial statusunu və ailə mənsubiyyətini əks etdirən mühüm identifikasiya vasitəsidir. Epiqrafik yazılar qadınların ictimai həyatda fəal iştirak etdiyini, bəzən siyasi və dini proseslərə təsir göstərdiyini sübut edən dəyərli tarixi mənbə rolunu oynayır. Məqalə bu baxımdan Azərbaycan qadınının tarixi və sosial vəziyyətinin daha dərindən öyrənilməsinə mühüm töhfə verir.

**Author(s):**

**Haji Fakhraddin Safarli**
**Nakhchivan State University**
**Corresponding member of ANAS, professor**
**E-mail:** seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

**Key words:** Nakhchivan, epigraphic monument, inscription, khatun, banu, bike, khanim

## Regarding the titles held by women as depicted in the monuments of Muslim epigraphy from the Middle Ages. (Based on Nakhchivan materials)

**Abstract.** The article examines the historical, semantic, and sociocultural aspects of the titles and forms of address given to women based on the monuments of Muslim epigraphy created in the Nakhchivan region during the Middle Ages. The study shows that within the framework of social relations of this period, addressing women with titles such as "khatun," "khanum," "bike," "banu," and "shahbanu" was determined according to their age, marital status, social status, and religious affiliation. The article analyzes the specific use of these titles and epithets in the examples of Momina Khatun, Gudi Khatun, Havva Badr Bike Khatun, Ziba Khanum, Banu Shahbike, Qureish Shahbanu, Mikeysa Khanum, and other historical figures based on epigraphic texts.

The results of the study show that these titles given to women are not just official and household addresses but also an important means of identification reflecting their influence in society, religious and moral qualities, social status, and family affiliation. Epigraphic inscriptions play the role of a valuable historical source proving that women actively participated in public life, sometimes influencing political and religious processes. In this regard, the article makes a significant contribution to a deeper study of the historical and social status of Azerbaijani women.

**Автор(ы):**

**Гаджифахраддин Сафарли**
Нахчыванский государственный университет
Член-корреспондент НАНА, профессор
**Э-почта:** seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

**Ключевые слова:** Нахчыван, эпиграфический памятник, надпись, хатын, Бану, Бике, ханум

## О титулах, которые носили женщины в средневековых памятниках мусульманской эпиграфики (На основе Нахчыванских материалов)

**Аннотация.** В статье рассматриваются исторические, семантические и социокультурные аспекты титулов и форм обращения к женщинам на основе памятников мусульманской эпиграфики, созданных в Нахчыванской области в Средние века. Исследование показывает, что в рамках общественных отношений этого периода обращение к женщинам с такими титулами, как «хатын», «ханым», «бике», «бану», «шахбану» определялось в соответствии с их возрастом, семейным положением, социальным статусом и религиозной принадлежностью. В статье проанализировано конкретное использование этих титулов и эпитетов на примере Момина хатын, Гуди хатын, Хавва Бадр Бике хатын, Зиба ханум, Бану шахбике, Курайш шахбану, Микейса ханум и других исторических личностей на основе эпиграфических текстов.

Результаты исследования показывают, что эти титулы, присвоенные женщинам, являются не просто официально-бытовыми обращениями, но и важным средством идентификации, отражающим их авторитет в обществе, религиозные и духовные качества, социальный статус и семейную принадлежность. Эпиграфические надписи служат ценным историческим источником, доказывающим активное участие женщин в общественной жизни, иногда влияя на политические и религиозные процессы. В связи с этим статья вносит важный вклад в более глубокое изучение истории и социального положения азербайджанской женщины.

**Giriş.** Orta əsrlər zamanı Azərbaycanda, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarında yaradılan müsəlman epiqrafikası abidələri ölkəmizin siyasi, iqtisadi və mədəniyyət tarixinin bir sıra məsələlərini işıqlandırmaq üçün zəngin məlumatlar verirlər. Belə məsələlərdən biri də islam dininin hakim olduğu orta əsrlər dövründə qadınlara münasibət və müraciət məsələsidir. İslam dininin, şəriət qanunlarının hakim olduğu orta əsrlər dövründə qadınlara Qurani-Kərimin "Hicab" ayəsinin tələblərinə uyğun münasibət göstərilərək onlardan naməhrəmlər qarşısında örtülü olmaq tələb olunsa da, yüksək hörmət və ehtiramın əlaməti olaraq onlara bir sıra titullarla müraciət olunurdu. Bu baxımdan qadınlara müxtəlif formalarda müraciət formaları yaranmışdı. Həmin müraciət formaları orta əsr yazılı mənbələrində, o cümlədən tarixin obyektiv və təhrif olunmamış mənbələrindən hesab olunan epiqrafik abidələrdə də öz əksini tapmışdır. Həmin titul və müraciət formaları dünyasını dəyişmiş qadınların xatirəsinə hazırlanmış məzar kitabələrində onların adlarına əlavə olunurdu və həmin kitabələr vasitəsi ilə bizə qədər gəlib çatmışdır.

Ədəbiyyat materiallarından və internet resurslarından məlumdur ki, qədim zamanlardan başlayaraq Azərbaycan xalqı arasında qadınlara xüsusi müraciət formaları (xanım, xatın, banu, bəyim və s.) olmuşdur. Həm də bu zaman qadınların yaşı nəzərə alınmışdır. Belə ki, 15 yaşına qədər olan qızlara banu, 15-35 yaşlı qızlara və qadınlara bəyim, 35-55 yaşlı olanlara xanım, 55-75 yaş arasında olan qadınlara xatın, 75 yaşdan yuxarı olan qadınlara isə xanım-xatın deyə müraciət edilmişdir [7].

Ancaq, orta əsr yazılı mənbələri təsdiq edirlər ki, türk xalqlarında qadınlara digər müraciət formaları da olmuşdur. Bu sıradan qadınların adına əlavə olunan "bikə", "şahbanu" və s. titulları da qeyd etmək olar. Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz müsəlman epiqrafikası abidələrinin mətnində qadın adlarına əlavə olunan bir sıra müraciət formalarına, o cümlədən "xanım", "xatın", "banu", "bikə", "şahbanu" titullarına rast gəlinmişdir.

Orta əsrlər zamanı işlənən qadın titulları arasında "xatın" titulu ən yüksək titul sayılırdı. Əsasən hökmdar, xüsusilə xaqanların arvadlarının daşıdığı bu titul hazırda Azərbaycan dilində həm də qadın anlamında və şəxsi ad kimi işlənməkdədir. Naxçıvan Muxtar Respublikasının epiqrafik abidələrində bu titula beş dəfə rast gəlinmişdir.

**Möminə xatın.** Möminə xatının adına Naxçıvan şəhərində özünün qəbri üzərində ucaldılan türbənin kitabəsində rast gəlinmişdir [2, s.59-60]. Möminə xatın Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin banisi Şəmsəddin Eldənizin xanımıdır. Bu görkəmli qadın – şəxsiyyətin adı Naxçıvan şəhərində, Atabəylər meydanında, indiki Əcəmi seyrəngahında əzəmətlə ucalan Möminə xatın türbəsinin qurşaq hissəsində yazılan əsas kitabədə qalmışdır. Əvvəl İraq Səlcuq Sultanı II Toğrulun, sonra isə Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin əsasını qoyan Şəmsəddin Eldənizin arvadı olduğuna görə Möminə "xatın" titulu daşımışdır. Sultan Toğrul 1135-ci ildə vəfat etdikdən sonra taxt-tacda onu əvəz edən Sultan Məsud dul Möminə xatını vaxtilə II Toğrulun sarayına qul kimi satın alınan, ancaq, özünün yüksək qabiliyyəti, bacarığı sayəsində sarayda böyük nüfuz qazanan, bu səbəbdən də Sultanın şəxsi məmlükləri sırasına keçirilən və Sultan mətbəxinin başçısı vəzifəsinə, həmçinin Sultanın azyaşlı oğlu Arslanşahın atabəyi təyin edilən, əmir rütbəsinədək yüksələn Şəmsəddin Eldənizlə evləndirir. Möminə xatının Atabəy Şəmsəddin Eldənizlə bu izdivacından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan adlı iki oğlu və bir qızı dünyaya gəlmişdir.

Eldənizlər dövlətinin birinci xanımı kimi Möminə xatın ağlı, qabiliyyəti, bacarığı ilə sarayda və xalq arasında böyük hörmət qazanmışdır. O, sarayda mühüm söz sahibinə, əri Şəmsəddin Eldənizin yaxın məsləhətçisinə çevrilmiş, Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin siyasi həyatında fəal rol oynamış, özünün ağıllı məsləhətləri və tövsiyələri ilə dövlətin idarə olunmasında iştirak etmişdir. Möminə xatın diplomatik manevrləri sayəsində sarayda yaranan ziddiyyətləri, hətta oğlu Arslanşahla əri Şəmsəddin Eldəniz arasındakı narazılığı aradan qaldıra bilmiş və onlar arasında normal münasibətlərin yaranmasına nail olmuş, beləliklə əri Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və onun bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail olmuşdu. Şəmsəddin Eldəniz ölkəyə

səyahətləri zamanı ən yaxın silahdaşı kimi Mömină xatını özü ilə aparmış, dövlət əhəmiyyətli məsələlərin həllində həmişə onun tövsiyə və məsləhətlərini nəzərə almışdır. Nəticədə, Şəmsəddin Eldəniz heç vaxt saraydaxili çəkişmələrə, intriqalara, fitnə-fəsadlara uymamış, obyektiv mövqe tutmuşdur.

Möminə xatın 1175-ci ildə vəfat etmişdir. Doğum tarixi dəqiq bilinməsə də, daşıdığı "xatın" tituluna əsasən onun vəfat edərkən 75 yaş ərəfəsində olmasını təxmin etmək olar. Müsbət və nadir keyfiyyətlərinə görə, Naxçıvan şəhərindəki qəbri üzərində ucaldılan türbənin kitabəsində Möminə xatının adı "dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların sərəfi" kimi sözlərlə müşayiət olunmuşdur [2, s.59-60].

**Qudi xatın.** Bu qadının adına Kəngərli rayonunun Qarabağlar kəndində indiyədək qalan memarlıq kompleksinə daxil olan qoşa minarələri birləşdirən baştağın üzərindəki kitabədə rast gəlinmişdir. Zaman keçdkcə çox hissəsi aşınaraq məhv olmuş kitabənin qaqlan hissəsinin mətninin tərcüməsi belədir: "Bu binanın [tikilməsini] ... Cahan Qudi xatın əmr etdi" [5, s.390].

Qudi xatın 1258-ci ildə əsası qoyulan Hülakülər dövlətinin banisi Hülakü xanın xanımıdır. Hökmdar arvadı olduğuna görə o, kitabədə "xatın" titulu ilə təqdim olunmuşdur. Orta əsr mənbələrində Qutuy xatın kimi xatırlanan Qudi xatın Hülakülər (Elxanilər) sarayında böyük nüfuz və söz sahibi olmuşdur. O, öz ağlı və bacarığı sayəsində yaşadığı dövrdə, xüsusilə oğlu Sultan Əhmədin hakimiyyəti illərində Hülakülər dövlətinin idarə olunmasında yaxından iştirak etmişdir [6, s.16]. Təəssüf ki, adının qaldığı kitabənin mətni tam olmadığı üçün Qarabağlar türbəsi kimi möhtəşəm bir abidəni Qudi xatının kimin şərəfinə inşa etdrməsini müəyyən etmək mümkün olmamışdır.

**Həvva Bədr Bikə xatın.** "Xatın" titulu daşıyan Həvva Bədr bikə xatının adına Culfa rayonunun Xanəgah kəndində indiyədək qalan Xanəgah Memarlıq Kompleksinə daxil olan və Şeyx Hacı Lələ Məliyin qəbri üzərində inşa etdirilən ikinci türbənin üzərindəki kitabədə və qadının özünün məzarı üzərində qoyulan sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən epitafiyada – məzar kitabəsində rast gəlinmişdir.

Türbə-məscidin ərəb dilində iki sətirdə həkk olunmuş kitabəsinin məzmunundan aydın olur ki, bu abidəni hicri-qəməri təqvimi ilə 901-ci ildə (miladi ilə, 21.09.1495-08.09.1496-cı il) bir müddət xanəgahda fəaliyyət göstərən sufi təriqəti mənsublarına rəhbərlik etmiş Şeyx Hacı Lələ Məliyin qəbri üzərində Həvva Bədr bikə xatın inşa etdirmişdir [3, s.84].

Həvva Bədr bikə xatının adı həm də onun xatirəsinə hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən kitabədə rast gəlinmişdir. Onun xatirə abidəsi keçən yüzilliyin 80-ci illərində Əlincəçay xanəgahının şərq divarı yanında abadlıq işləri aparılarkən torpağın altından aşkar olunmuşdur. Səthinin yan haşiyələrində Qurani-Kərimdən II surənin 255-ci ayəsi yazılan qəbirüstü xatirə abidəsinin üzərindəki kitabənin mətni belədir: "Bu bağça qazı Məcd əd-Dinin qızı, mərhumə Həvva Bədr Bikənindir" [3, s.89].

Həvva Bədr bikə xanəgahın şeyxlərindən olan Şeyx Hacı Lələ Məliyin arvadı olmuşdur. Türbənin kitabəsində qeyd olunduğu kimi, əri Şeyx Hacı Lələ Məliyin qəbri üzərində türbə inşa etdirməsi və xanəgahın divarları yanında dəfn olunması göstərir ki, Həvva Bədr bikə xatın xanəgah şeyxinin arvadı olduğu üçün əri ilə birlikdə xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur. Orta əsr qaynaqları da təsdiq edirlər ki, təriqət başçıları, xanəgah rəhbərləri olan şeyxlər ailə üzvləri ilə birlikdə xanəgah komplekslərinə daxil olan xüsusi yerlərdə yaşamışlar və öldükdən sonra isə xanəgahda və ya ətrafında dəfn olunmuşlar.

Həvva Bədr bikə xatının xatirəsinə yazılan məzar kitabəsində vəfat tarixi qeyd edilməmişdir. Ancaq, inşa etdirdiyi türbənin kitabəsinin məlumatından aydın olur ki, 1495-1496-cı illərdə, abidənin inşası başa çatan vaxt o sağ imiş. Buradan belə bir nəticəyə gəlmək olar ki, ərinin ölümündən sonra Həvva Bədr bikə xatın bir müddət xanəgahda yaşamış, vəfatından sonra xanəgahın şərq divarı yanında dəfn olunmuşdur. Bu fakta, həmçinin xanəgah ətrafından tapılmış digər abidələrlə oxşar cəhətlərinə görə müqayisəsinə əsasən ehtimal etmək olar ki, Həvva Bədr bikə xatın XV əsrin sonu – XVI əsrin əvvəllərində vəfat etmişdir. "Xatın" titulunu adətən 55-75 yaşlı qadınlar daşıdığı üçün vəfat edərkən onun 75 yaşa yaxın yaşda olmasını ehtimal etmək olar.

Məzar kitabəsinin məlumatlarına əsasən demək olar ki, Həvva Bədr bikə xatın əsil-nəca-

bətli ailədən çıxmış bir xanım, şəriət hakimi (qazı) qızı olmuşdur. Türbə-məscidin kitabəsində onun adı "kəramətli, əzəmətli xatın" və "bikə" titul və epitetləri ilə, məzar kitabəsində isə ancaq, "bikə" titulu ilə təqdim olunmuşdur. Fikrimizcə, Həvva Bədr bikə xatın xanəgahda fəaliyyət göstərən sufi təriqətinin mənsubu, yaxud da təəssübkeşi olmuşdur. Ərinin xatirəsinə onun qəbri üzərində möhtəşəm türbə tikdirməsinə əsasən ehtimal etmək olar ki, o çox imkanlı qadın olmuşdur və bu səbəbdən də xanəgahda fəaliyyət göstərən təriqət mənsublarını lazım olduqda yeməklə və pulla təmin etmiş, başqa xeyriyyəçilik işlərini də həyata keçirmişdir [3, s.95].

Naxçıvan Muxtar Respublikası epiqrafik abidələri içərisində rast gəlinən qadın titullarından biri də "Bikə" tituludur. Bu titula ərazidə tədqiq olunan dörd ədəd kitabədə təsadüf edilmişdir. Bu kitabələrdən ikisi əvvəldə haqqında bəhs olunan Həvva Bədr bikəyə aiddir. Hərfi mənası "bəy arvadı" olan "bikə" titulu orta əsrlər zamanı, xüsusilə XIV-XV əsrlərdə türk xalqları arasında geniş yayılmışdı və bu titulla əsasən ərə getməmiş qızlara, əsilzadə qadınlara müraciət edilirdi. Müasir dövrdə "Bikə" titulu həm də şəxsi ad kimi istifadə edilməkdədir. Hətta bu titulun "xanım" titulu ilə birləşməsindən "Bikəxanım" mürəkkəb şəxs adı da yaradılmışdır.

**Ziba xanım.** Ziba xanımın adı Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığındakı qəbirinin üzərində qoyulan özünəməxsus sənduqə formalı qəbirüstü xatirə abidəsi üzərində ərəb dilində həkk edilmiş kitabə vasitəsi ilə aşkar edilmişdir. XVI əsrə aid kitabənin mətni belədir: "Bu bağça əmir Bədiül-Mülkün qızı, alim, abid, hörmətli xatın Ziba xanımındır" [4, s.84-85].

Məzar kitabəsinin məzmunundan göründüyü kimi, Ziba xanım "əmir" rütbəsinə yüksəlmiş sərkərdə qızı olmaqla kübar ailəyə mənsub olmuş, bu səbəbdən də kitabədə "hörmətli xatın" və "xanım" titulları ilə təqdim olunmuşdur.

Həmçinin kitabədən aydın olur ki, Ziba xanım "alim" və "abid" olmuşdur.

**Banu Şahbikə.** Tədqiq olunan kitabələrdə rast gəlinən qadın titullarından biri də "Banu" və bu titulun digər bir titulla birləşməsindən əmələ gətirilən "Şahbanu" tituludur. "Banu" fars mənşəli söz olub mənası "qadın hökmdar" deməkdir. Bu söz Osmanlı ləhcəsində "gözəl və cazibədar qadın" mənasında işlənmişdir. Bir sıra mənaları olsa da, "banu" Azərbaycan dilində əsasən kübar qadınlara verilən titul və şəxsi ad kimi istifadə olunmuşdur.

Banu Şahbikənin adı vaxtilə Naxçıvan şəhər imamzadəsinin ətrafında yerləşən, ancaq, şəxsiyyətə pərəstiş illərində məhv edilən qəbiristanlıqda olan özünəməxsus sənduqə formalı qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş məzar kitabə vasitəsi ilə aşkar edilmişdir. Qəbiristanlıq məhv edilərkən bu xatirə abidəsi torpağın altında qalmış, sonralar imamzadənin ətrafında abadlıq-bərpa işləri aparılarkən təsadüfən tapılmışdır.

Ortadan iki yerə bölünmüş, boz daşdan hazırlanmış sənduqə tipli həmin qəbirüstü xatirə abidəsinin (ölçüsü: 131x25x22 sm) səthi təbii qüvvələrin təsiri nəticəsində güclü aşınmaya məruz qaldığından orada heç bir kitabə və ornament izi qalmamışdır. Sənduqənin sağ və sol yanında lentvari haşiyə şəklində həkk edilmiş kitabə vəfat etmiş şəxs haqqında məlumat verir. Kitabənin mətnindən aydın olur ki, xatirə abidəsi mərhumə, günahları bağışlanmış, xoşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba[nu] Şahbikənin xatirəsinə hazırlanmışdır. Həmçinin kitabə bizə çatdırır ki, Ba[nu] Şahbikə hicri-qəməri təqvimilə doqquz yüz altıncı ildə (miladi ilə, 1500-cü ildə) fani dünyadan əbədi dünyaya köçmüşdür [2, s.79-80].

"Bikə" titulu vasitəsi düzələn Şahbikə adını daşıyan qadının adına həm də "banu" titulunun əlavə olunması, həmçinin Naxçıvan şəhər İmamzadəsinin ətrafında dəfn olunması onun kübar ailəyə mənsub olmasını göstərir. Xatirəsinə həsr olunmuş məzar kitabəsində "xoşbəxt şəhid" epiteti ilə təqdim edilməsi isə Banu Şahbikənin, öz əqidəsi və ya din uğrunda şəhid olmasından irəli gəlmişdir.

**Qureyş şahbanu.** Qureyş şahbanunun adı Culfa rayonundakı Xanəgah kəndində yerləşən sufiliklə bağlı mərkəzin – xanəgahın ətrafında bərpa işləri zamanı təsadüfən aşkar olunan və hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən məzar kitabəsi vasitəsi ilə aşkar edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: "Bu bağça əmir Ərəbşahın qızı Qureyş şahbanunundur. 848-də (miladi

ilə, 20.04.1444-8.04.1445-ci il)" [2, s.93].

Kitabədən məlum olur ki, "şah" və "banu" titullarının birləşməsindən əmələ gələn, hərfi mənası "şah arvadı" demək olan "şahbanu" titulunu daşıyan Qureyşin atası Ərəbşah "əmir" titulu daşımışdır. Deməli, yüksək hərbi rütbə daşıyan bu adam Qaraqoyunlu dövlətinin ordusunda böyük məqam sahibi olmuşdur. Belə yüksək rütbəli bir şəxsiyyətin qızı olmasına, həmçinin xanəgah ətrafında dəfn olunmasına əsasən ehtimal şəklində olsa da, demək olar ki, Qureyş şahbanu xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbərlərindən birinin arvadı olmuş, əri və ailəsi ilə birlikdə xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur.

**Bikə Sultan.** Bu qadının adı Culfa rayonunun Xanəgah kəndinin cənub-şərq tərəfində yerləşən qəbiristanlıqda özünün qəbri üzərində qoyulmuş sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki məzar kitabəsi vasitəsi ilə aşkar olunmuşdur. Kitabədə yazılmışdır: "Məlik Məhəmmədin qızı, mərhumə Bikə Sultanın vəfatı. Doqquz yüz dördüncü il (miladi ilə, 19.08.1498-07.08.1499)" [3, s.116].

Kitabədə Bikə Sultanın şəxsiyyəti, yaşadığı XV əsrdə tutduğu mövqe və s. haqqında fikir söyləmək üçün əsaslı bir fakt və ya nişanə yoxdur. Ancaq, onun məzarı üzərində gözəl kitabələr və incə, nəfis ornamentlər həkk edilmiş gözəl xatirə abidəsi qoyulması göstərir ki, o, imkanlı ailəyə mənsub bir adam olmuşdur. Atası Məhəmmədin adına əlavə olunmuş və orta əsrlər zamanı yerli hakimlərin daşıdığı "Məlik" titulu göstərir ki, o, Əlincəçay mahalının yerli hakimlərindən olmuşdur.

Mərhumənin adına əlavə olunan və türk xalqlarında zadəgan silkinə məxsus qadınlara verilən "Bikə" titulu da onun kübar ailəyə mənsub olduğunu təsdiq edir.

**Xanbikə.** Orta əsrlər zamanı, həmçinin müasir dövrdə də "Bikə" titulu ilə digər titulların birləşməsindən qadın şəxs adları düzəldilmiş (məsələn, Xanbikə, Şahbikə və s.) və qız uşaqlarına verilmişdir. Bunu Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz məzar kitabələri də təsdiq edir. Xanbikənin adı Ordubad şəhərinin əsas məzarlığı olan "Malik İbrahim" qəbiristanlığındakı qəbirinin üzərində qoyulan özünəməxsus başdaşı formalı qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabə vasitəsi ilə aşkar edilmiş və elmi dövriyyəyə daxil olunmuşdur. Kitabənin mətni belədir: "Ey rəhmlilərin rəhmlisi! Bu bağça Sultan Sadi bəyin qızı, mərhumə, günahları bağışlanmış, pak həyat tərzi keçirən, salehə [qadın] Xanbikənindir. Doqquz yüz səksən birinci il (miladi ilə, 03.05.1573-22.04.1574-cü il)" [4, s.87].

Kitabənin məlumatlarından aydın olur ki, xatirəsinə belə bir abidə hazırlanmış Xanbikə bəy qızı olmuşdur. Həmçinin onun adına əlavə olunan "günahları bağışlanmış, pak həyat tərzi keçirən, salehə [qadın]" epitetləri göstərir ki, o dindar, mömin bir qadın olmuş, haramlardan çəkinmiş, özünün pak həyat tərzi ilə tanınmış, xeyirxah əməlləri ilə məşhur olmuşdur. "Xan" və "Bikə" titullarından yaranmış Xanbikə adı "böyük", "üstün", "ali xanım" mənalarına gəlir.

**Mikeysə xanım.** Naxçıvan Muxtar Respublikası ərazisində indiyək gəlib çatan qadınlara məxsus məzar kitabələrində ən çox işlənən titul "xanım" tituludur. "Xanım" sözü qadınlara müraciət forması olub, "xanın arvadı, xanın qadını" anlamına gəlir. "Xanım" titulunun yaranmasını bəzən monqol hökmdarı Çingiz xanla bağlayırlar. Onların fikrincə, Çingiz xan bir gün bütün xanları ətrafına toplamış, sağ tərəfində isə arvadını oturtmuşdur. O, xanlara müraciətlə "mən xanlar xanı Çingiz xanam, hamınızın xanıyam" demiş, sonra isə arvadını göstərərək "bu da mənim xanımdır" söyləmişdir. Beləliklə, "xanım" sözü yaranmışdır [8].

"Xanım" deyərkən həm də qadın, arvad, zövcə başa düşülmüş və bəzi hallarda bu titul mürəkkəb qadın adlarının ikinci tərkib hissəsinə (Minaxanım, Xırdaxanım, Balacaxanım və s.) çevrilmişdir [1, s.423]. Sonralar, xüsusilə müasir dövrdə bu titul hörmət əlaməti olaraq bütün qadınlara müraciət formasına çevrilmişdir.

Mikeysə xanımın adı Culfa rayonundakı Xanəgah kəndinin şərq tərəfində, Əlincəçay sahilində yerləşən xanəgahın ətrafında təsadüfən aşkar olunan və hazırda Naxçıvan Dövlət Tarix muzeyində nümayiş etdirilən, mərmərin xüsusi növü oniksdən hazırlanmış sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən epitafiya – məzar kitabəsi vasitəsi ilə elmi dövriyyəyə daxil edilmişdir. Kitabədən aydın olmuşdur ki, nəfis şəkildə hazırlanmış "bu bağça kamil şeyx Hacı

Hilalullahın qızı, mərhumə Mikeysə xanımındır" [2, s.89].

Yaşadığı dövrdə tutduğu mövqe haqqında fikir yürütmək üçün kitabədə "xanım" titulu ilə təqdim olunan Mikeysənin adına əlavə başqa bir titul və ya epitet əlavə olunmamışdır. Ancaq, onun atası kitabədə "şeyx", həm də "kamil şeyx" titulu ilə təqdim olunmuşdur. Bu titul göstərir ki, Hacı Hilalullah XV yüzillikdə Əlincəçay xanəgahının rəhbər şeyxlərindən biri olmuşdur. Bu fakta əsasən demək olar ki, Mikeysə xanım atası ilə birlikdə xanəgahda yaşamış, ehtimal ki, xanəgahın rəhbər şeyxlərindən birinə ərə getmiş və orada yaşamasını davam etdirmişdir. Öldükdən sonra isə xanəgahın divarları yanında dəfn olunmuşdur.

Sənduqə üzərindəki başqa bir kitabədən məlum olur ki, Mikeysə xanım hicri 897-ci ildə (miladi ilə, 14.11.1491-22.10.1492) vəfat etmişdir [2, s.90].

**Şərəf xanım.** Bu qadının adı Naxçıvan şəhərinin cənub tərəfində yerləşən Köhnə qalada (Naxçıvanqalada) bərpa işləri zamanı təsadüfən torpağın altından aşkar olunan özünəməxsus başdaşı tipli xatirə abidəsi üzərində həkk edilən kitabə vasitəsi ilə emi dövriyyəyə daxil edilmişdir. Mərmər lövhə üzərində həkk edilmiş kitabənin əvvəlində şiə aləmində "14 məsum" kimi tanınan müqəddəslərn adı yazılmış, mərkəzi hissədə isə mərhumə haqqında məlumat verilmişdir: "Bu qəbir Rüfətin qızı, əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların-H.S.) zinəti Şərəf xanımındır – ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı. Məhərrəm ayı, min qırx doqquzuncu il. İmarətin binası qoyuldu, 1049 (miladi ilə, 04.05-02.06. 1639-cu il) [2, s. 106]".

Kitabədə mərhumənin adına əlavə olunan əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların) zinəti sözləri onun yaşadığı dövrdə saleh əməlləri, ibadəti, Qurani-Kərimin "Hicab" haqqında ayəsinə əməl edən bakirə bir qız olduğunu göstərir. Həmçinin kitabədə Şərəf xanımın "ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı" kimi təqdim olunması onun Naxçıvan şəhərində fəaliyyət göstərən hansı isə sufi təriqətinə mənsub olmasına işarədir. Kitabədə onun "bakirə" kimi təqdim olunması, yəni ərə getməməsi də onun dərviş-qadın olduğunu təsdiq edir.

**İzz Şərəf xanım**. İzz Şərəf xanımın adını bizə keçən yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında abadlıq-bərpa işləri aparılarkən torpağın altından aşkar olunmuş mərmərdən hazırlanmış başdaşı üzərində həkk olunmuş məzar kitabəsi çatdırmışdır. Kitabənin mətni belədir: "Quran LV-26. Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169 (miladi ilə, 07.04.1756-cı il)" [2, s.98].

Kitabədən göründüyü kimi, xatirəsinə mərmərdən gözəl başdaşı hazırlanmış İzz Şərəf xanım görkəmli alim Nəsirəddin Tusi nəslindən olan Mirzə İnayət adlı adamın qızı olmuşdur. Səfəvilər zamanından başlayaraq irsi olaraq Ordubad şəhərini idarə edən Nəsirəddin Tusi nəsli Ordubadın sayılıb-seçilən tayfalarından olmuşdur. Onlar Ordubad şəhərini irsən idarə etməklə bərabər, həm də bölgənin iri feodalları kimi çoxlu kəndlərə, torpaq sahələrinə malik olmuşlar. Ehtimal etmək olar ki, Mirzə İnayət də Ordubad şəhərinin siyasi, iqtisadi və mədəni həyatında mühüm rolu olan şəxsiyyət olmuşdur. Bu səbəbdən də onun qızı məzar kitabəsində "xanım" titulu ilə təqdim olunmuşdur.

İzz Şərəf xanımın şəxsiyyəti haqqında tutarlı fikir söyləmək mümkün olmasa da, Ordubad şəhərinin baş məscidi olan Came məscidinin yanında dəfn olunması onun heç də sıradan bir vətəndaş olmadığını göstərir. Müsəlman Şərqində Came məscidləri yanında əsasən cəmiyyətin həyatında yüksək hörməti və mövqeyi olan tanınmış, görkəmli şəxsiyyətlər dəfn olunduğundan burada dəfn olunması onun nüfuzlu ailəyə mənsub olmasından irəli gəlməklə yanaşı, özünün də cəmiyyətin həyatında mənsub olduğu mövqedən də qaynaqlana bilərdi.

**Xanım Əta Mülk.** Bu qadının adına Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığında özünəməxsus qəbrin üzərində qoyulmuş başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən məzar kitabəsində rast gəlinmişdir. Ərəb dilli kitabədə yazılmışdır: "Bu bağça böyük sədr Rükn əd-Din amid əl-Mülkün – onun yatağı sərin olsun – qızı, mərhumə, günahları bağışlanmış xanım Əta Mülkündür. Onun ölümü səkkiz yüz

on birinci il, məhərrəmin on ikisində (miladi ilə, 07.06.1408-ci il)" [4, s.82].

Kitabədən aydın olur ki, mərhumə xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsr Azərbaycan dövlət aparatında mühüm vəzifələrdən sayılan "böyük sədr" vəzifəsində çalışmışdır. Orta əsr müəllifləri tərəfindən "yüksək vəzifə" kimi dəyərləndirilən və qaynaqlarda "sədr", "sədr əl-əzəm", "sədr əl-müəzzəm", "sədr əl-kəbir" və s. kimi təqdim olunan sədr vəzifəsini tutan adamlar böyük imtiyazlara malik olaraq bəzən dövlət aparatında üçüncü yeri tutmuşlar.

Kitabədə mərhumənin atası böyük sədr Rükn əd-Dinin adına əlavə olunan "amid əl-mülk" titulu isə orta əsrlər zamanı dövlətin əsas vəzifələrindən sayılan vəzirlik məqamını tutan adamlara verilirdi. Bu titul göstərir ki, xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsrin sonu-XV əsrin əvvəllərində Azərbaycan dövlət aparatında böyük sədr və vəzir vəzifəsini icra etmişdir. Deməli, yüksək vəzifəli məmurun qızı kimi xanım Əta Mülk kübar ailəyə mənsub olmuş, bu səbəbdən də məzar kitabəsində "xanım" titulu ilə təqdim olunmuşdur.

Qeyd olunan epiqrafik nümunələr əsasında belə bir nəticəyə gəlmək olar ki, orta əsrlər zamanı naxçıvanlı qadınlar, onların timsalında bütün Azərbaycan qadınları "xatın", "banu", "bikə", "xanım" və s. titullar daşımışdır. Bu titullar bəzən eyni dövrdə bir-biri ilə paralel olaraq işlənmişdir. Bəzi hallarda qadınların iki titulla təqdım olunması hallarrına da rast gəlinmişdir. Kitabələrdə qalan tarixlərdən məlum olur ki, Naxçıvan ərazisində XII-XVI əsrlərdə qadınlara "xatın", XV əsrdə onunla birlikdə "bikə", XV-XVI əsrlərdə "banu", XV-XVIII əsrlərdə və sonrakı dövrlərdə "xanım" titulu ilə müraciət olunmuşdur.

**Material və metodlar.** Bu tədqiqat işi orta əsrlər dövründə Azərbaycan, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarında qadınlara verilən titul və müraciət formalarının müəyyən edilməsi məqsədi daşıyır. Tədqiqat zamanı epiqrafik mənbələrdən – inşaat və məzar kitabələrinin məlumatlarından informasiya mənbəyi kimi istifadə olunmuşdur. Araşdırmaya daxil edilən epiqrafik nümunələr əsasən Naxçıvan Muxtar Respublikası ərazisində – Naxçıvan şəhərində, Ordubad, Culfa və Kəngərli rayonlarında yerləşən orta əsr qəbiristanlıqlarından və memarlıq abidələrindən götürülmüşdür.

İşin material bazasını həm sahə tədqiqatları zamanı toplanmış məlumatlar, həm də Naxçıvan Muxtar Respublikası ərazisindəki muzeylərin fondlarında qorunub saxlanılan kitabə mətnləri və elmi nəşrlərdə dərc olunmuş epiqrafik sənədlər təşkil etmişdir.

Tədqiqatın aparılmasında aşağıdakı elmi metodlardan istifadə olunmuşdur:

• Tarixi-analitik metod – epiqrafik mətnlərdə rast gələnən titul və müraciət formalarının mənşəyi, semantikası və tarixi kontekstdə təhlili üçün tətbiq olunmuşdur;

• Mənbəşünaslıq metodu – orta əsr yazılı mənbələri və müasir tədqiqat ədəbiyyatı ilə müqayisəli şəkildə istifadə edilmişdir;

• Semantik təhlil metodu – titul və müraciət formalarının leksik mənaları və funksional istifadəsi öyrənilmişdir;

• Sosiomədəni yanaşma – qadınların sosial statusu, dini-mənəvi, məişət mövqeyi və ailə mənsubiyyətinin titul seçiminə təsiri araşdırılmışdır;

• Tipoloji müqayisə metodu – müxtəlif kitabələrdə rast gəlinən titul və müraciət formaları arasında oxşar və fərqli cəhətlər sistemləşdirilmişdir.

Bütün epiqrafik nümunələr orijinal mənbələr əsasında təhlil edilmiş, tarixi dövrlər üzrə təsnif olunmuş və qadınların cəmiyyətdəki mövqeyini əks etdirən faktoloji əsaslarla dəyərləndirilmişdir.

**Nəticə.** Aparılmış tədqiqatlar əsasında belə qənaətə gəlmək olar ki, orta əsrlər dövründə Naxçıvan bölgəsində qadınlara verilən titul və müraciət formaları – "xatın", "xanım", "bikə", "banu", "şahbanu" və s. – yalnız formal nitq vahidləri deyil, həm də qadınların cəmiyyətdəki yerini, nüfuzunu, mənəvi dəyərlərini və sosial statusunu əks etdirən simvolik göstəricilər olmuşdur. Epiqrafik abidələr bu titul və epitetlərin daşıyıcılarının şəxsiyyəti, dini dünyagörüşü, ailə mənsubiyyəti və ictimai mövqeyi haqqında mühüm tarixi-mədəni məlumatlar təqdim edir.

Bu titulların müxtəlif dövrlərdə və fərqli bölgələrdə eyni zamanda və ya ardıcıl şəkildə işlədilməsi, həmçinin bir şəxsin adına birdən çox titulun əlavə olunması, orta əsr cəmiyyətində qadınlara verilən dəyərin çoxşaxəli və kompleks xarakter daşıdığını göstərir. Xüsusilə qeyd olunmalıdır ki, bu titullar vasitəsilə qadınların yalnız

ailədaxili funksiyaları deyil, həm də dini, siyasi və mədəni sferadakı fəallıqları da tarixə düşmüşdür.

Epiqrafik mətnlər göstərir ki, Naxçıvan qadınları öz dövrlərində həm ailə daxilində, həm də cəmiyyət səviyyəsində nüfuzlu şəxsiyyətlər kimi tanınmış, dövlət və dini həyatda fəal mövqe tutmuşlar. Onların xatirəsinə ucaldılmış türbələr və xatirələrinə həkk edilmiş kitabələr bu tarixi həqiqəti bir daha təsdiqləyir.

Beləliklə, Naxçıvan bölgəsindəki qadınlara aid epiqrafik abidələrin tədqiqi həm qadın tarixi, həm də sosial-siyasi baxımdan mühüm nəticələr verir və bu sahədə gələcək elmi araşdırmalar üçün zəngin və etibarlı mənbə bazası yaradır.

**Ədəbiyyat**

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. – Bakı: Şərq-Qərb, – 2006. – 792 s.
2. Səfərli, H. Naxçıvan şəhərinin epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan:Əcəmi, – 2019. – 152 s.
3. Səfərli, H. Əlincəçay mahalının epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan: Əcəmi, – 2020. – 200 s.
4. Səfərli, H. Ordubad bölgəsinin epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan: Əcəmi, – 2021. – 336 s.
5. Алескерзаде, А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. // Архитектура Азербайджана эпохи Низами. – Москва-Баку, – 1947. – с. 390.
6. Рашидаддин, Ф. Джами ат-таварих (сборник летописей) / Ф.Рашидаддин. – Баку, – 1957, том 3. – с. 16.
7. https://m.facebook.com/rqalagoz/photos/a137169596385355/3406069242828701/?type=3
8. https://www.facebook.com/mingechevir.dovlet.dram.teatri/posts/744133412366684/

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 05.03.2025